# Ali Ey Kerem Huması Tarının Güzel Nişanı

— *faramarz-abdollahpur* · 11 Ekim 2024




Əli ey kərəm huması tarının gözəl nişanı
O huma ki kölgəsilə bürüyübdi masəvani

Ürəğ ər tanırsan allah gör əli ruxında cəm'in
Tanıdım əlilə məndə qəsəm allaha xudani

İnan allaha fənadən iki dünyada əsər yox
Əli tək ki kimsə tutsa səre çəşmeye bəqani

Məgi sən səhabe rəhmət yağasan ki yoxsa dozəx
Bu şərare qəhri otlar hamı cane masəvani

Du get ey dilənçi yoxsul qapısını döv əlinin
Ki bağışlıyar gedayə kərəmilə şah nişani

Əlidən suvay diyər kim ki bu qatilimlə oğlım
Ki əsir olup əluzda keçinişgilən əlani

Əlidən suvay ki kimsə gətirər oğul əcayib
Ələm eyləsin cəhanə şuhədaye kərbəlani

Əge dosla əhd bağlar pak olanların içində

Kim əli təkin bacarmış çıxada başa vəfani

Nə çağıra billəm allah nə bəşər deyim bacarmam
Çağırım nə qalmışam mat şəhe mülke lafətani

İki gözlə ağlaram qan hələ ey nəsime rəhmət
Ki o kuydən gətir toz mənə ver o tuteyani

Bu omidilə ki şayəd əyağun tozına çatsın
Hamı suze dildi peyğam sənə yolladım səbani

Fuqəra dualərilə çövirən qəzani sənsən
Ki bizimdə canımızdan çövir afəte qəzani

Nə çalım ki neytək hərdəm ki nəvaye şovqun hərdəm
Ki lesane ğeyb xoştər çalırı belə nəvani

Bu umudla hammı axşam ki nəsime sübhegahdan
Gələ aşina peyami edə şad aşinani

Dur eşit gecə zəmani bu nəvani həq quşundan
Ürəğin ğəmində dosta denə şəhriyar cani
⚓
(Şəhriyarın farsı şerin türkiyə çevirdim)